

# Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Konvensiya

" futbol oyunlarında təhlükəsiz, etibarlı və qonaqpərvər mühiti təmin etmək üçün çoxtərəfli vahid yanaşma …

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

” futbol oyunları və digər idman tədbirlərini daha qonaqpərvər, təhlükəsiz və etibarlı etmək …




## KONVENSİYANIN MƏQSƏDİ NƏDİR?

Konvensiya Tamaşaçı Zorakılığına dair Avropa Konvensiyasının 1985-ci ildə qəbul edilməsindən sonra beynəlxalq səviyyədə görülmüş işlərə əsaslanır.

Məqsəd zorakılığa yönəlik yanaşmadan bir-biri ilə qarşılıqlı olaraq bağlı olan üç -“təhlükəsizlik, mühafizə və xidmət” komponentlərinə əsaslanan vahid yanaşmaya doğru getməkdir.

Konvensiya yerli icmalar və azarkeşlər də daxil olmaqla idman tədbirlərinin təhlükəsiz, etibarlı və qonaqpərvər edilməsində iştirak edən bütün dövlət və özəl qurumlar kimi maraqlı tərəflər arasında əməkdaşlığı təşviq edir.

Konvensiya Avropadanın ən yüksək təhlükəsizlik, mühafizə və xidmət standartlarına əsaslanan tədbirlər itəqdim edir.

Konvensiya Tərəflərin Konvensiyanın müddəalarına uyğunluğuna nəzarət etmək və onlara bu müddəaları tətbiq etmək üçün dəstək və məsləhət vermək məqsədilə İdman Tədbirlərində Təhlükəsizlik və Mühafizə üzrə Komitə yaradır.

## ÜÇ KOMPONENT – TƏHLÜKƏSİZLİK, MÜHAFİZƏ VƏ XİDMƏT

**Təhlükəsizlik** anlayışına idman tədbirləri zamanı insanların yaralanmadan qorunması və ya sağlamlıq və əmin-amanlıqları üçün üzləşdikləri risklərin qarşısının alınması ilə bağlı olan bütün tədbirlər daxildir. Buraya stadion infrastrukturları və sertifikasiyası, gözlənilməz hallarla bağlı planlar və ya spirtli içkilərdən istifadə ilə bağlı tədbirlər daxildir. Təhlükəsizlik tədbirləri həmçinin insanların tədbirə getdikləri zaman və stadionlardan kənardakı ictimai izləmə məkanlarında qoruyur.

**Mühafizə** anlayışına stadion daxilində və ya ondan kənarda futbol və ya digər idman tədbirləri ilə bağlı zorakılıq və ya nalayiq rəftar hadisəsinin dayandırılması, qarşısının alınması və cəzalandırılması üçün nəzərdə tutulmuş bütün tədbirlər daxildir. Buna xüsusilə riskin qiymətləndirilməsi, polis və digər aidiyyəti agentliklər arasındakı əməkdaşlıq və sanksiyaların qoyulması daxildir.

**Xidmət** anlayışına stadionlarda və həmçinin oyunlardan öncə, oyunlar zamanı və onlardan sonra tamaşaçıların toplaşdığı ictimai məkanlarda futbol və digər idman tədbirlərinin hər kəs üçün daha xoş və qonaqpərvər mühitdə keçməsi üçün nəzərdə tutulmuş bütün tədbirlər daxildir. Bura yemək və tualet avadanlıqları kimi material elementlər daxildir. Lakin ən əsası bu xidmət anlayışı insanların tədbir zamanı necə salamlanmasına və onlarla necə rəftar edilməsinə diqqət edir.



## ÇOXTƏRƏFLİ VAHİD YANAŞMA

Konvensiya əsas məqsədlərindən asılı olmayaraq futbol oyunlarında və digər idman tədbirlərində təhlükəsizlik, mühafizə və xidmət tədbirlərinin uyğun xüsusiyyətlərini vurğulayır. Bu tədbirlər təsir baxımından qarşılıqlı əlaqədədirlər, buna görə də balanslaşdırılmalı və təcrid olunmuş formada hazırlanmamalı və ya tətbiq edilməməlidir.

Bir sütunun digər iki sütuna birbaşa təsir edə bilməsini unutmayaraq Konvensiya futbol və ya digər idman tədbirlərinin planlaşdırması və əməliyyat fəaliyyətlərinə cəlb edilən hər bir agentliyin rollarının və fəaliyyətlərinin hərtərəfli və mütənasib formada koordinasiya edilməli və hərtərəfli təhlükəsizlik, mühafizə və xidmət strategiyasının bir hissəsi kimi hazırlanmalı və həyata keçirilməli olmasını tələb edir.

Konvensiya həmçinin futbol oyunlarının və ya digər idman tədbirlərinin stadionların daxilində və kənarında təhlükəsiz, etibarlı və qonaqpərvər edilməsinə kömək edən tamaşaçıların və yerli icmaların vacib rolunu vurğulayır. Bu tərəflər çoxtərəfli vahid yanaşmanın bir hissəsi hesab edilməlidir.




# İDMAN TƏDBİRLƏRİNDƏ TƏHLÜKƏSİZLİK VƏ MÜHAFİZƏ ÜZRƏ KOMİTƏ

Komitə Tərəf dövlətlərin mühafizə və idman təhlükəsizliyi sahələrinə məsul aparıcı dövlət orqanlarının və Milli Futbol Məlumat Məntəqəsinin (MFMM) nümayəndələrindən ibarət nümayəndə heyətlərini bir araya gətirəckdir. O, həmçinin idman təşkilatlarından müşahidəçiləri də məmnuniyyətlə qəbul edəcəkdir.

Komitə Tərəf dövlətlərə Dövlətlər və “məsləkdaş dəyərləndirməsi mexanizmi” arasındakı əməkdaşlığın etikasına əsaslanan səfər proqramı vasitəsilə konvensiyanın tətbiqinə nəzarət edəcədir. Bu səfərlərin məqsədi Dövlətlərə siyasətlərinin müəyyənləşdirilməsini təkmilləşdirilmək, ən yaxşı praktikaları qəbul etmək və konvensiyanın müddəalarına uyğunlaşmaq üçün yardım etmək məqsədilə məsləhət və dəstək verməkdir.

Komitə Konvensiyanın tətbiqi üçün görülməli olan tədbirlərlə bağlı Tərəflərə tövsiyələr verir və ehtiyaclarına uyğun olaraq onlara texniki yardımı təklif edir. O, həmçinin aidiyyəti tərəfdaşlarla konsultasiyalar təşkil edir və Dövlətlər arasında təcrübə və yaxşı praktika toplanmasını və mübadiləsini asanlaşdırır.



Avropa Şurasının Futbol oyunları və Digər idman tədbirləri zamanı Təhlükəsizlik, Mühafizə və Xidmət məsələlərinə Vahid yanaşma haqqında Konvensiyası Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 4 may 2016-cı il tarixində qəbul edilib və 3 iyul 2016-cı ildə Sən-Döni şəhərində (Fransa) imzaya açılıb.

Bu, futbol və digər idman tədbirlərinin keçirilməsinə cəlb edilmiş bütün Tərəflər arasında təsisatlararası əməkdaşlığı quran beynəlxalq müstəvidə məcburi olan yeganə vasitədir.

## Daha ətraflı məlumat üçün :

**www.coe.int/sport/**
**sport@coe.int**

PREMS 125221 – © Shutterstock – SN – Tomasz Bidermann

AZE

**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE